Hörmətli cənab nazirlər, millət vəkilləri, səfirlər,
Hörmətli elm adamları, iş adamları və media mənsubları,
Hörmətli xanımlar və cənablar!

Dəvətimizi qəbul edib bizi şərəfləndirdiyiniz üçün hər birinizə təşəkkürümü bildirirəm.

Hamınız UNESCO-nun elan etdiyi “2007 – Mövlanə ili” tədbirləri çərçivəsində böyük türk və islam mütəfəkkiri Mövlana Cəlaləddin Ruminin 800 illik ildönümünə həsr olunmuş “Mövlanəni günümüzdə yaşatmaq, yaşamaq” mövzusunda Beynəlxalq Elmi – Praktik Konfransa xoş gəlmişsiniz.

Azərbaycan Türkiyə İş Adamları Birliyi fəaliyyətə başladığı 2004-cü ilin aprel ayından etibarən Azərbaycanın iqtisadi inkişafı, Türliyə, eləcə də digər xarici ölkələrlə bütün sahələrdə əlaqələrin dərinləşdirilməsi istiqamətində bir sıra ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirmişdir. İlk öncə qeyd edim ki, ATİB təkcə iqtisadi sferalarda deyil, sosial və mədəni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində də fəaliyyət göstərir. Bu çərçivədə həyata keçirilmiş tədbirlərdən bəzilərini xatırlatmaq istərdim.

Belə ki, 2006-cı ildə ATİB Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin birgə əməkdaşlığı ilə Türkiyənin məşhur bəstəkarı, piyanoçu Fazil Say, 2003-cü il “Eurovision” müsabiqəsinin qalibi - müğənni Sertab Erener və 9 Eylül Simfonik Orkestri ilə konsert təşkil etmişdir. Qeyd edim ki, Fazil Sayın iştirakı ilə 2005-ci ildə də belə bir konsert proqramı həyata keçirilmişdi.

2007-ci ilin fevralında Ankarada Türkiyə Tarix Qurumunun ev sahibliyi ilə "Azərbaycan və Türkiyə tarixində erməni məsələsi" ilə əlaqədar Türkiyə Tarix Qurumu, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Bakı Dövlət Universiteti və ATİB arasında imzalanan dördtərəfli əməkdaşlıq Protokolu və Bakı Bəyannaməsi çərçivəsində yaradılmış Koordinasiya Şurasının növbəti iclası keçirilmişdir. Görüşdə Xocalı soyqırımına hüquqi status verilməsi ilə bağlı fəaliyyətə başlanması barədə qərar qəbul edilmişdir.

Cari ilin may ayında ATİB və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Türkiyənin 6 aparıcı xəstəxanasının 11 həkimi və 2 media nümayəndəsi Azərbaycanda səfər etmişdir. “Güclü iqtisadiyyat sağlam gənc nəsil tələb edir” prinsipindən çıxış edilərək təşkil edilən bu səfər çərçivəsində Qazax, Şəmkir, Gədəbəy, Tovuz, Şamaxı və Abşeron rayonlarında 2000-dən artıq insan, xüsusilə də qaçqın və məcburi köçkün ailələri pulsuz tibbi müayinədən keçirilmiş, ehtiyacı olan vətəndaşlara müxtəlif tibbi və gündəlik ehtiyac ləvazimatları da paylanılmışdır. Tədbir çərçivəsində, həmçinin, orta məktəb şagirdləri arasında gigiyena, ekoloji problemlər və ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmə işləri aparılmış, Bakı Dövlət Universitetində “XXI əsrin sağlam ailəsi” mövzusunda elmi-praktik konfrans təşkil edilmişdir.

Birliyin təşəbbüsü ilə Azərbaycan və Türkiyə tarixinin araşdırılması, ortaq problemlərin və onların həlli yollarının müəyyən edilməsi, həmçinin regionda xalqların sülh və əmin-amanlıq mühitində yaşamalarına, iqtisadi inteqrasiyaya mane olan problemlərin həllinə və bu çərçivədə regionun iqtisadi rifahının yüksəlməsinə töhfə vermək məqsədilə Azərbaycan Tarix Araşdırmaları Fondu yaradılmaqdadır. Fond hazırda Dövlət qeydiyyatına alınma mərhələsindədir

Qeyd etmək istəyirəm ki, hər il ənənəvi olaraq həyata keçirilən tədbirlərdən biri də ATİB özünün ad günü olan aprelin 17-də Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişaf etdirilməsinə ən çox töhfə verən hadisə üzrə “Qızıl Çarx” mükafatlarını təqdim edir.

ATİB-in qurulduğu gündən etibarən müxtəlif səpkili aktual mövzularda həyata keçirdiyi tədbirlərin siyahısı bununla məhdudlaşmır. Mövlana ilə əlaqədar olan bu günki tədbir də bu silsilədən olan tədbirlərdəndir.

Nə üçün məhz Mövlana Cəlaləddin Rumiyə həsr olunmuş tədbirləri keçiririk?

UNESCO-nun təşəbbüsü ilə 2007-ci ilin bütün dünyada Mövlanə ili olaraq qeyd edilməsi, bizi həm Türk övladı, həm Müsəlman, həm də bir insan kimi qürurlandırır. Mövlanənin əsərlərində insanpərvərlik ideologiyası, dini tolerantlıq və humanist əxlaqi, daima təzəliyini və aktuallığını qoruyan tərbiyəvi fikirlər təbliğ edilir.

Siyasi fikir ayrılıqlarının, ölkələr və millətlər arası münaqişələrin, eyni zamanda insanların ideologiysındakı ziddiyyətlərin hökm sürdüyü müasir dünyada insan sevgisinə əsaslanan Mövlanə fəlsəfəsinin sülh və əmin-amablığın təmin edilməsi baxımından böyük əhəmiyyəti var. Maarifçi və sülh məramlı insan olan Mövlanə Mustafa Kamal Atatürkün sözləri ilə desək, “müsəlmanlığı türk ruhuna intibah etdirən böyük yenilikçidir... Mövləvilik isə Türk mədəniyyətinin müsəlmanlığa olan təsir nümunəsidir. İlahi musiqinin ahəngi içərisində dönərək Allaha yaxınlaşma fikrinin, türk dühasının, uzaqgörənliyinin və düşüncəsinin təbii şəkildə ifadə edilməsidir.

“Xoş məramlılıqda dəniz kimi ol, Ya olduğun kimi görün, ya da göründüyün kimi ol” deyən Mövlanənin sonsuz xoş məramı və sevgisi bu gün insanlığın ehtiyac hiss etdiyi barış, qardaşlıq və mənəvi həzzin açarıdır. O, Könül birliyini dil birliyindən daha üstün olaraq qəbul etmişdir.

Mövlanə irsini tədqiq edən istər Qərb, istərsə də Şərq tədqiqatçıları Mövlanəni təsəvvüf şerinin ən böyük zirvəsi, Şərqin ən mistik şairi, məşhur əsəri “Məsnəvi”ni isə müzakirəsiz dünya ədəbiyyatının ən böyük şah əsərlərindən biri olaraq qəbul etmişlər. Onun əsərlərini zəmanədəki bütün bədbəxtliklərin və dərdlərin çarəsi kimi qiymətləndirən bu tədqiqatçılar ömürlərini onun irsini tədqiq etməklə keçirəcəklərini və bundan böyük həzz aldıqlarını bildirmişlər.

Dünən biz Azərbaycan Dövlət Filarmoniyasında Beynəlxalq Mövlana Fondu və Türkiyənin Konya şəhərinin Selcuk Universiteti ilə birlikdə Səma konserti təşkil etdik. Selcuk Universitetinin Mövlana Araşdırma və Uyğulama Mərkəzinin Səma Qrupu Hamami-Zade İsmayıl Dədə Əfəndi tərəfindən bəstələnən “Hüzzam Mevlevi Ayini”ni tamaşıçılara təqdim etdilər.

Mövlanə Səmasında olan dərin məna da Mövlanənin nə qədər böyüklüyə sahib olduğunu göstərir. O, əsl məhəbbəti Yaradanda axtarmağı tövsiyə etmiş, bütün sevgilərin də Yaradana olan eşqə aparacağını bildirmişdir. Səmazən səma edərkən qolları açıq, sağ əli dua edirmiş kimi göylərə, İlahidən gələcək ehsanı almağa hazır vəziyyətdə, gözü ilə baxdığı sol əli isə yerə istiqamətlənir. Bu, Haqdan aldığı mənəvi ehsanı haqq gözü ilə baxdığı xalqa çatdırmaqdır. Bu, sağdan sola qəlbin ətrafında dönərək dünyadakı bütün yaradılanları ilahi sevgi ilə qucaqlamaqdır.

İnanıram ki, hamınız bu Konfransdan zövq alacaqsınız. Bu tədbirlərin həyata keçirilməsində bizə köməklik edən sponsorlarımıza, cox gərgin proqramları olan Millət vəkili, Bakı Dövlət Universiteti Rektoru Abel Məhərrəmova, Beynəlxalq Mövlanə Fondunun ikinci rəhbəri xanım Esin Çələbi Bayruya, Səlcuq Universiteti Mövlanə Araşdırma Mərkəzinin rəhbəri Nuri Şimşəklərə dərin minnətdarlığımı bildirir və Konfransın işinə uğurlar arzulayıram.

**Diqqətinizə görə sağ olun.**